# Vətənpərvər ruhlu dərslər



**Natavan ABDURƏHMANOVA,**
*Sumqayıt şəhər Təbiət elmləri təmayüllü gimnaziyanın ingilis dili müəllimi*

Tanınmış maarif xadimi, müəllim, yazıçı Sultan Məcid Qənizadənin gözəl bir fikri vardır: "Müəllimlik dünyanın ən vacib peşələrindəndir. Bəlkə də birincidir. Bağ - bağbansız keçinmədiyi kimi bəşəriyyət də müəllimsiz keçinə bilməz. Həqiqi müəllim var-dövlət, cah-cəlal haqqında fikirləşməməlidir. Müəllimin evi kitabxana, dövləti kiçik şagirdlər, sözü-nəğməsi şagirdlərin əks-sədası, istirahəti dəftərlərin təshuhu, qazancı isə millətin ehtimatı və məhəbbətidir". Müəllimlik çətin peşədir. Yaxşı müəllimlərimiz isə bunun öhdəsindən ustalıqla gəlir. Çünki onlar şagirdlərinin ehtiyaclarını və maraq dairələrini çox gözəl bilir və dərsini daha maraqlı və günün tələblərinə uyğun qurmağa çalışırlar. Mən də bir müəllim olaraq çalışıram ki, şagirdlərdə yazılı və şifahi nitq bacarıqlarını mənimsətməklə bərabər həmçinin dünyagörüşünü də formalaşdırım. Dərslərimdə şagirdlərə ingilis dilini, Avropa mədəniyyətini öyrətməklə bərabər vətənə sevgi, xalqa hörmət hisslərini də aşılayıram. Torpaqları düşmən tapdağı altında olan azərbaycanlı vətənpərvər bir müəllim kimi bunu özümə borc bilirəm.

Mübarizəmiz davam etməkdədir və burada hamı - ictimai statusundan, vəzifəsindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı öndə olmalı və öz sahəsində "Qarabağı və şəhidlərimizi unutmamalıyıq" devizi ilə təbliğat aparmalıdır. Bu ilin aprelində baş verən hadisələr, xüsusən cəbhə bölgələrində gedən döyüşlər, verdiyimiz qurbanlar, şəhidlik zirvəsinə ucalan qəhrəman oğullar və nəhayət, qazandığımız uğurlar - qanımız bahasına geri aldığımız torpaqlar bizi cəmiyyətdə öz təbliğatımızı daha geniş şəkildə həyata keçirməyə sövq edir. Başa vurduğumuz dərs ilinin son günlərində "Bu günün qəhrəmanları" mövzusunda Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovla bağlı bir dərs hazırlayıb tədris etmişdim. Onun icmalını geniş oxucu auditoriyası ilə paylaşmaq istərdim.

*Fənn:* İngilis dili

*Mövzu:* "Bu günün qəhrəmanları".

*Standartlar:* 1.1.2, 2.1.1, 2.1.3, 3.1.1, 4.1.2

*Təlim nəticələri:*

- Qəhrəmanlıq sözünün mənasını dərk edir.
- Gələcək qeyri-müəyyən zamandan istifadə edərək sualları müzakirə edir.
- Qəhrəmanı xarakterizə edir.
- Mətni oxuyub yeni informasiyanı tapır.
- Qəhrəmanlıq haqqında öz fikirlərini ifadə edir.

*Dərs tipi:* deduktiv.

*İş forması:* Siniflə və qrupla iş.

*İş üsulu:* əqli-hücum, müzakirə, müsahibə

*İnteqrasiya:* ədəbiyyat, tarix, musiqi

*Resurslar:* dərslik, iş vərəqələri, kompüter, elektron lövhə, proyektor, şəkillər.

*Dərsin gedişi:*

Şagirdlərlə salamlaşıram. Dərsdə hərbi vətənpərvərlik ab-havası yaratmaq üçün Azərbaycan Respublikasının Dövlət himnini ifa edirik.

*Motivasiya:*

Keçən əsrlərin xalq qəhrəmanları və milli qəhrəmanların şəkillərindən ibarət slaydları şagirdlərə göstərərək yönəldici suallar verirəm:



1. Onlar kimlərdir?
2. Qəhrəman olmaq üçün insan nə etməlidir?
3. Bu qəhrəmanlar arasındakı fərq nədir?

*Tədqiqat sualı:*

Qəhrəmanlar haqqında nə bilirik?

Sinif iki qrupa ayrılır. Qrupların biri "vətənpərvərlər", digəri "qəhrəmanlar" adlandırılır. Onlar qruplarını niyə bu cür adlandırdıqlarının səbəblərini açıqlayırlar. "Vətənpərvərlər" keçmiş, "qəhrəmanlar" qrupu isə bu günün qəhrəmanları haqqında təqdimat hazırlamalıdırlar.

*Tədqiqatın aparılması:*

Şagirdlər qrup şəklində işləyərək dünənin və bu günün qəhrəmanları və onların şücaətləri haqqında məlumat toplayırlar.

*Məlumat mübadiləsi:*

Şagirdlər iş vərəqələrində işləyirlər və onlar öz fikirlərini bütün siniflə paylaşırlar.

*Məlumatın müzakirəsi:*

Şagirdlərə suallarla müraciət edirəm:

1. Bu qəhrəmanlar haqqında nə bilirsiniz?
2. Onlar necə qəhrəman oldular?

Müzakirələr zamanı deyilmiş fikirləri ümumiləşdirirəm.

Daha sonra Milli Qəhrəman Mübariz İbrahimov haqqında videoçarx göstərilir və qəhrəmanımızla bağlı mətn şagirdlər tərəfindən oxunub tərcümə edilir.

2-ci qrupun işində Mübariz İbrahimovun valideynlərinə yazdığı məktubun ingilis dilindəki variantı qruplara təqdim olunur. Qruplar məktubdakı gələcək qeyri-müəyyən zamanda olan cümlələri seçməlidirlər.

**Mubariz's last letter.**

- "Dear father and mother. Don't miss for me. We shall meet in Heaven. Please, pray for me. I can't leave my country in the lurch. I must do it for God. At least my heart will be cosy. I will go on these inglorious till my martyrdom. Don't cry-if I be martyr. But, be happy that I promoted to this level. Please, follow your praying for God. Give more alms. I must do it. God is great. Long live our country!
- Your son, Mubariz."

*Yaradıcı tətbiqetmə:* Qruplar verilmiş nümunəyə əsasən öz sülh şeirlərini yazmalıdırlar.




*Qiymətləndirmə:* Bu mərhələdə "Qruplar tapşırığı düzgün yerinə yetirdi, vaxtında yerinə yetirdi, əməkdaşlıq etməyi bacardı" kimi meyarlarla qiymətləndirilir.

*Nəticə:*

Dərsin sonunda belə bir nəticəyə gəlinir ki, Mübariz İbrahimov xalqını ürəkdən sevən bir oğuldur. Onun valideynlərinə yazdığı məktub bütün şagirdlər tərəfindən əzbərlənməli və bir əsgər andına çevrilməlidir. Qəhrəmanlar tarix yazdılar. Onlar heç vaxt unudulmurlar. Xalq öz şəhidini uca tutur və bu xalq yaşadıqca şəhidlər də həmişə xalqımızın qəlbində yaşayacaqlar. Son hadisələr göstərdi ki, Azərbaycanda yüzlərlə, minlərlə Mübariz kimi oğullar vardır və onlar Ali Baş Komandanın əmrini gözləyirlər.